# Müasir dərs necə olmalıdır və mən dərslərimi necə qururam

**Sevil ƏLİYEVA,**
*Heydər Əliyev adına liseyin*
*Azərbaycan dili və ədəbiyyat müəllimi,*
*Azərbaycan Respublikasının əməkdar müəllimi*

İnteraktiv təlimlə keçilən dərslər ciddi elmi-metodik struktura malikdir. Burada hər bir addımda görülən işlər məntiqi cəhətdən bir-birini tamamlamalıdır. Bu dərsin gedişi elədir ki, həmin mərhələləri bir-birindən ayırmaq və ya bəzisini ixtisara salmaq mümkün deyildir. Dərslərimdə əsas diqqəti materialın sinifdə araşdırılmasına və qarşıya qoyulan təlim məqsədlərinin yerinə yetirilməsinə yönəldirəm. Çalışıram ki, dərsin bütün mərhələləri - motivasiya, tədqiqatın aparılması, məlumat mübadiləsi, məlumatın müzakirəsi və təşkili, nəticələrin çıxarılması, yaradıcı tətbiqetmə, qiymətləndirmə, ev tapşırıqları şagirdlər üçün maraqlı olsun, onların diqqətini cəlb etsin.

Kurikulumlarda təlim forması və üsullarına təlim strategiyasının mühüm tərkib hissəsi kimi yanaşılmışdır. Onların mahiyyəti və əsas xüsusiyyətləri yeni tələblər əsasında şərh edilmişdir.

İnteraktiv təlim metodları ilə işləmək üçün aşağıdakıların nəzərə alınmasının böyük əhəmiyyəti vardır:

1. Fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi;
2. Fəal dərsin mərhələləri;
3. Fəal dərsin strukturu.

Dərslərimdə fəal təlimin fərdi iş, cütlərlə iş, böyük qruplarla və kiçik qruplarla iş formalarından istifadə edirəm.

Fəal dərsin aşağıdakı mərhələlərinin səmərəliliyinə diqqət yetirirəm:

1. Düşünməyə yönəltmə - şagird mövzu ilə əlaqədar biliklərini xatırlayır, fəallaşır. Onlarda mövzuya maraq yaradıram.
2. Dərketmə - yeni biliklərin öyrənilməsi kimi başa düşülür.
3. Düşünmə - yeni biliyi möhkəmləndirmək üçün testlər, tapşırıqlar, əvvəlcədən hazırladığım kartoçkalar (üzərində maraqlı sxem, cədvəllərdən ibarət çalışmalar) verirəm.

Fəal dərsin birinci və ən vacib mərhələsi bünövrə rolu oynayan motivasiyadır. Bu mərhələdə müxtəlif texniki vasitələrdən - televizordan, maqnitofondan, kompüterdən, maraqlı lent yazılarından istifadə edir, müxtəlif fənlərlə inteqrasiya yaradıram.

Məktəbimizdə kompüter, televizor, maqnitofon olduğu üçün studiyadan bir çox əsərlərin lent yazıları, kinofilmlərdən fraqmentlər, tamaşalar, bədii qiraət ustalarının ifasında şeir nümunələri, M.Şəhriyarın öz səsi ilə "Heydərbabaya salam" poeması və sairdən dərslərimdə geniş istifadə edirəm. Bu vasitələrlə motivasiyadan problem- situasiya yaradıram, problemlə bağlı şagirdlər öz fikir və fərziyyələrini irəli sürürlər.

Tədqiqatın təşkilində problemin həlli istiqamətində sinfə iş tapşırıram, əvvəlcədən hər qrup üçün işçi vərəqləri hazırlayıram. İş formasını özüm seçirəm. Məlumatın mübadiləsində verilən tapşırıqla əlaqədar şagirdlər öz aralarında fikir mübadiləsi aparırlar, müstəqil fikirlər irəli sürürlər. Təbii ki, hansı qrupun cavabının daha dəqiq, dolğun olduğunu qeyd edirəm.

Məlumatın müzakirəsi və təşkilində qrupun lideri işçi vərəqini lövhəyə yapışdırır, ümumi fikri müəllim və şagirdlərə çatdırır.

Nəticənin çıxarılması mərhələsində dinlədiyim fikirlərə, nəticələrə münasibətimi bildirirəm, əgər yanlış fikir varsa, düzəliş edirəm, istiqamət verirəm, sonra ümumi nəticə çıxarırıq.

Tətbiqetmə mərhələsində əldə olunan biliklərə əsaslanaraq sinifdə və ya evdə verdiyim tapşırıqlar yerinə yetirilir.

Metod müəllimin əsas silahlarından biridir. Həm Azərbaycan dili, həm də ədəbiyyat dərslərində müxtəlif metodlardan istifadə edirəm. Həmişə eyni metoddan istifadə, mənə elə gəlir ki, şagirdin fənnə marağını azaldır. Dərslərin maraqlı keçməsi üçün BİBÖ, şaxələndirmə, ikihissəli gündəlik, Venn diaqramı, konseptual cədvəl, anlayışın çıxarılması, söz assosiasiyası, əqli hücum, debat, layihə, rollu oyun və s. kimi metod və priyomlardan geniş istifadə edirəm. Qruplarla iş zamanı müqayisə apararkən oxşar anlayışların, fikirlərin, obrazların və s. fərqləndirilməsi üçün klaster, konseptual cədvəl, Venn diaqramı və s. kimi üsullar faydalıdır.

Azərbaycan dili dərslərində ən çox aşağıdakı anlayışların mənimsədilməsində: 1) çoxmənalı sözlər və omonimləri; 2) $-ı^4$ şəkilçisinin omonimliyini; 3) $-ın^4$ şəkilçisinin omonimliyini; a) II şəxs tək mənsubiyyət şəkilçisi ilə yiyəlik hal şəkilçisini; b) feildən isim düzəldən şəkilçi kimi - əkin; 4) feillərdə omonim şəkilçilər (məchul növ, şəxssiz növ və qayıdış növ şəkilçisi $-ın^4$, icbar növ və təsirli feil $-dir^4$ şəkilçisi; 5) tabesiz mürəkkəb cümlələrin məna əlaqələri; 6) tabesiz mürəkkəb cümlələrlə həmcins xəbərli sadə cümlələrin bəzi oxşar və fərqli cəhətlərini aydınlaşdırmaq üçün təlim metodlarından səmərəli istifadə etməyə çalışıram.

Ədəbiyyat dərslərində də bu metodların böyük əhəmiyyəti vardır. Bəzi obrazların mənimsədilməsində məsələn, "Xeyir və Şər" mənzum hekayəsində ("Yeddi gözəl" poemasından); Xeyir və Şərin müqayisəsi "Dədə Qorqud" və "Koroğlu" dastanlarında oxşarlıqlar və fərqlər (X sinif); C.Cabbarlının süjet xətti, mövzu və üslub etibarı ilə oxşar əsərləri ( "Ədirnə fəthi" və "Trablis müharibəsi" dramları, XI sinif); Aydınla Oqtay Eloğlunun müqayisəsi ( "Aydın" və "Oqtay Eloğlu" dramları, XI sinif); Vaqif və xalq, Natəvan və xalq- hər ikisinin müqayisəsi (S.Vurğunun "Vaqif" dramı və İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" dramı) və s. müasir təlim metodları xüsusilə faydalıdır. Fikrimcə, ədəbiyyat dərslərində əsərin məzmunu və təhlili üzrə iş aparарkən "Klaster", "Şaxələndirmə" üsullarından istifadə yaxşı nəticə verir.

Motivasiya və ümumiləşdirmə mərhələlərində, təhlil dərslərində, əsərin məzmununun öyrədilməsində Venn diaqramından istifadə məqsədəuyğundur.




*"Konseptual cədvəl"* üsulundan istifadə zamanı müqayisə ediləcək obyektlər müəyyən edilir və sütunun birində yazılır. Digər sütunda isə onları hansı keyfiyyətinə görə müqayisə etmək lazım gəldiyi qeyd olunur. Ədəbiyyat dərslərində, xüsusən də təhlil prosesində surətlərin səciyyəsini həmin cədvəl əsasında aparmaq olar. Məsələn, VIII sinifdə N.Gəncəvinin "Sultan Səncər və qarı" əsəri üzrə müqayisəni aşağıdakı cədvəl əsasında aparıram:

| Müqayisə ediləcək obyektlər | Müqayisə ediləcək xüsusiyyətlər | | |
|---|---|---|---|
| | Şəxsi keyfiyyəti | İnsanlığı | Xeyirxahlığı |
| Sultan Səncər | | | |
| Qarı | | | |

*Müzakirələr.* (Diskussiya) Hər hansı bir məsələyə dair fikir mübadiləsi aparıram. Nəyin müzakirə ediləcəyini müəyyən, reqlament təyin edirəm. Debatdan fərqli olaraq, dərsi müəyyən qərarın qəbul edilməsi ilə yekunlaşdırıram. Müzakirə olunan məsələ ilə bağlı hərə öz fikrini, mövqeyini ifadə edir, yoldaşlarının fikirlərinə münasibət bildirir. Təcrübədə ən yaxşı, maraqlı müzakirələr aşağıdakı mövzularla, suallarla bağlı olub. Məsələn, H.Cavidin "Ana" pyesində "Səlma ana oğlunun qatilini xilas etməkdə haqlıdırmı? Ananın hərəkətini necə qiymətləndirirsiniz? Ananın yerinə siz olsaydınız necə hərəkət edərdiniz?" sualları ətrafında müzakirə aparmaq olar.

*Söz assosiasiyasından* motivasiya mərhələsində istifadə məqsədəuyğundur. Bu üsuldan istifadə zamanı mən mövzunun tələbinə uyğun olan bir sözü səsləndirirəm. Şagirdlər həmin sözlə daha çox bağlı olan digər sözləri səsləndirirlər. Məsələn, cümlə üzvləri dedikdə nə başa düşürsünüz? Şagird cavab verir: mübtəda, xəbər, təyin və s. Baş üzvlərlə ikinci dərəcəli üzvlərin fərqi nədir? ... Sonra uyğun gələn anlayışı seçirəm və dərsdə nədən danışılacağını şagirdlərə elan edirəm.

*"Sehirli bayraqlar"* üsulundan ədəbiyyat dərslərində məzmun və təhlil üzərində iş aparılarkən istifadə məsləhətdir. Bu üsulla iş zamanı - Üç bayraq təsviri olan tapşırıq vərəqinin hərəsini bir qrupa təqdim edirəm. Qruplar bayrağın üzərindəki suallara cavab tapır və fikirlərini sinifİə bölüşürlər.




Ədəbiyyat dərslərində əsərin məzmununu yaxşı mənimsətmək məqsədilə əsərdəki hadisələri qarışıq şəkildə yazıram. Hadisələri ardıcıllıqla sıralamağı hər qrup üçün ayrıca tapşırıq kimi verirəm.

Motivasiya mərhələsində daha çox istifadə olunan üsullardan biri də anlayışın çıxarılmasıdır. Müəyyən əlamətlərə görə əşyanın, anlayışın tapılmasını tələb edirəm. Belə ki, tapılacaq anlayışı bir vərəqə yazıram və üstünü sual işarəsi yazılmış başqa bir vərəqlə örtürəm. Onun altında isə həmin anlayışa dair bir neçə ( azı iki) əlamət qeyd edirəm. Şagirdlər həmin əlamətlər əsasında anlayışı tapırlar. Əlamətlərə istinad edərək anlayışı tapa bilməsələr, başqa əlamətləri buraya daxil edirəm. Ta ki, şagirdlər əlamətlər əsasında anlayışı ortaya çıxara bilsinlər.




Fəal interaktiv dərsin səmərəliliyi müəllimin planlaşdırma və bələdçilik bacarıqlarından asılı olan bir işdir. Müəllim dərsin bütün mərhələlərində görüləcək işləri əvvəlcədən dəqiq planlaşdırmalı, ciddi hazırlıq işləri görməlidir.

Müəllim öyrəniləcək proqram materialının məzmununu, hansı təlim metodlarından istifadə edəcəyini, motivasiya, dialoq, diskussiya, əməkdaşlıq, tədqiqat mühitini necə yaradacağını, dərsdən əvvəl maraqlı, müxtəlif formada iş vərəqləri, testlər, sual və tapşırıqlar, qiymətləndirmə vərəqi və cədvəllərini hazırlamalı, hansı texniki və əyani vəsaitdən, əlavə mənbədən istifadə edəcəyini planlaşdırmalıdır.